AZƏRİNŞAAT

“Azərinşaatservis” MMC
Azərbaycan, Bakı, AZ 1108, Dərnəgül qəs., 11-ci Dağlıq k., 3105
**Tel.:** (+994 12) 447 70 03 (04) **Faks:** (+994 12) 565 04 54
www.azerinsaat.com

**PRES RELİZ**

# ABŞ-ın Gürcüstandakı səfiri “Azərinşaatservis”in yol tikinti layihəsində oldu.

*“Azərinşaatservis” MMC*
*Bakı, Azərbaycan*
*2010/05/06*

May ayının 6-da Amerika Birləşmiş Ştatlarının Gürcüstan Respublikasındakı səfiri John Bass Axalkalakidə “Azərinşaatservis” MMC-yə aid yol tikinti düşərgəsində oldu. Düşərgəyə baş çəkənlər arasında səfirlə yanaşı “Minilliyin çağırışı – Gürcüstan” Fondunun direktoru Corc Abuşelişvili, Minilliyin Çağırışı Korporasiyasının və tikinti şirkətlərinin nümayəndələri də vardı.

Səfir düşərgəyə səfəri zamanı “Azərinşaatservis” MMC-nin icra etdiyi Nardevani-Satxe layihəsi çərçivəsində işlərin gedişatı ilə tanış oldu. “Azərinşaatservis” MMC-nin Gürcüstan filialının nümayəndələri ilə söhbət edən ABŞ səfiri görülən işləri və ümumilikdə Şirkətin fəaliyyətini yüksək qiymətləndirdi.

“Azərinşaatservis” MMC “Minilliyin çağırışı – Gürcüstan” Fondu tərəfindən elan edilmiş tenderdə qalib gələn 4 şirkətdən biridir. Şirkət hazırda Gürcüstan ərazisində Samtsxe-Cavaxetiya və Kvemo Kartli regionunun yol-nəqliyyat şəbəkəsinin bərpasını nəzərdə tutan strateji əhəmiyyətə malik “Samtsxe-Cavaxetiya Yolunun Rehabilitasiyası Layihəsi” çərçivəsində Nardevanı-Satxe (47,8 km) və Teleti-Koda-Asureti (19 km) yollarının reabilitasiyası layihələrini icra edir.

Hər iki layihə üzrə tikinti işləri “Minilliyin çağırışı – Gürcüstan” Fondunun sifarişi və Minilliyin Çağırışı Korporasiyasının maliyyə dəstəyi ilə həyata keçirilir. 2009-cu ilin ikinci yarısından icrasına başlanan hər iki layihənin bu ilin sonlarına qədər tamamlanması nəzərdə tutub.





*2003-cü ildə qurulan "Azərinşaatservis" MMC Azərbaycanda və Qafqaz regionunda yüksək keyfiyyətli xidmətlər göstərməklə yol və dəmir yolu tikintisi sahəsində liderlik iddiasında olan bir şirkətdir. Şirkət əsas fəaliyyət dairəsi olan avtomobil və dəmir yolu tikintisində A-dan Z-yə bütün növ xidmətləri öz imkanları hesabına həyata keçirir.*

***Mətbuat üçün əlaqəli şəxs:***
**Kənan KƏRİMLİ,** İctimaiyyətlə Əlaqələr və Mətbuat üzrə Meneceri
**Tel.:** (+994 12) 447 70 03 (04)
**Mob.:** (+994 55) 208 20 87, (+994 50) 255 38 86
**E-mail**: k.karimli@azerinsaat.com
**www.azerinsaat.com**